# Vətənə, xalqa xidmət missiyası



## *23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür*

**Müasir, müstəqil Azərbaycanın banisi ümummilli lider Heydər Əliyev ikinci dəfə ölkə rəhbərliyinə qayıtdıqdan sonra respublikada özbaşınalığın, xaos və anarxiyanın qarşısını almaqla bərabər, həm də ölkənin yeni inkişaf strategiyasını müəyyənləşdirdi.**

Ulu Öndər cəmiyyət həyatının bütün sahələrində, o cümlədən dövlət qulluğu sahəsində genişmiqyaslı islahatların, ən başlıcası isə, milli kadrların yetişdirilməsinin vacibliyini vurğulayırdı. Ulu Öndərin ölkəyə rəhbərliyinin ikinci mərhələsində respublikanın dövlət strukturlarında müstəqilliyin ilk illərində hakimiyyət postunu tutmuş qüvvələr tədricən uzaqlaşdırılır, dövlət idarəçiliyində təcrübəsi olan milli kadrlara üstünlük verilirdi. Çünki müstəqilliyini yenicə bərpa etmiş dövlətin müəyyənləşdirdiyi siyasətin uğurla həyata keçirilməsi, respublikanın gələcək inkişafı, beynəlxalq əlaqələrin genişləndirilməsi, ölkə daxilində mövcud problemlərin həlli üçün dövlət orqanlarının səmərəli fəaliyyəti və eyni zamanda, dövlət qulluqçularının yüksək peşəkarlığı ən vacib şərtlərdən idi. Bu baxımdan ölkə başçısı tərəfindən dövlət qulluğu sahəsinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atıldı, demokratik dəyərlər, mütərəqqi prinsiplər əsasında çevik dövlət idarəçilik sistemi formalaşdırıldı. 1995-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə demokratik, müasir, hüquqi, dünyəvi dövlətin əsası qoyuldu.

**(davamı 12-ci səhifədə)**



# 23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

(əvvəli 1-ci səhifədə)

1996-cı ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Hüquqi İslahat Komissiyasının yaradılmasında məqsəd ölkədə qanunçuluğun möhkəmləndirilməsi, hüquq-mühafizə orqanlarının və məhkəmə sisteminin fəaliyyətinin təkmilləşdirilməsi idi. Komissiyanın həmin il mart ayının 4-də keçirilən ilk iclasında hüquqi islahatların aparılması, qanunların hazırlanması, qəbulu kimi mühüm məsələlər müzakirə olunmuşdur. Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının fəaliyyəti nəticəsində 21 iyul 2000-ci il tarixdə "Dövlət qulluğu haqqında" Qanun qəbul edilmişdir. Qanunda dövlət qulluğunun hüquqi bazasının yaradılması, dövlət qulluqçularının fəaliyyət prinsiplərinin, sosial təminatlarının və vəzifə səlahiyyətlərinin müəyyənləşdirilməsi, dövlətlə dövlət qulluqçuları arasında münasibətlərin tənzimlənməsi, dövlət qulluğu sahəsində şəffaflıq və müsabiqə əsasında işə qəbul baxımından beynəlxalq standartlara uyğun qaydaların tətbiqi nəzərdə tutulmuşdur. 2001-ci il 1 sentyabr tarixində qüvvəyə mindikdən sonra qanuna müxtəlif əlavə və dəyişikliklər edilmiş,ümumilikdə dövlət sahəsinə aid, o cümlədən dövlət qulluğunu tənzimləyən 90-a qədər əsas və ikinci dərəcəli qanunvericilik mətni hazırlanaraq Qanuna uyğunlaşdırılmışdır. "Dövlət qulluğu haqqında" Qanun müstəqil respublikamızda dövlət idarəçiliyinin hüquqi bazasını təşkil edən mühüm sənəd olmaqla ölkəmizdə dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsasını qoymuşdur.

Azərbaycan Respublikası Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, dövlət orqanlarının səlahiyyəti çərçivəsində qərarların hazırlanması, qəbulu və icrasına nəzarət, dövlət orqanlarının səmərəli fəaliyyəti və dövlət qulluqçularının səlahiyyətlərini yerinə yetirmələri dövlət qulluğunun əsas vəzifələridir. Prezident İlham Əliyev bu barədə demişdir: Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir".

Qanunvericiliyə əsasən dövlət orqanlarında çalışanlar vətəndaşlara qanunçuluq, şəffaflıq, dürüstlük və tərəfsizlik prinsipləri əsasında xidmət göstərməli, fəaliyyətlərini vətəndaşın hüquq və mənafeyinin qorunması istiqamətində həyata keçirməlidirlər. Çünki ölkənin hər bir vətəndaşı dövlət orqanları ilə məhz dövlət qulluqçuları vasitəsilə əlaqə yarada bilir. Buna görə də "Dövlət qulluğu haqqında" qanunun tənzimlədiyi norma və prinsiplər vətəndaş məmnuniyyətinin təmin olunmasında əsas rol oynayır. Yalnız dövlət qulluqçularının deyil, bütün cəmiyyətin maraqlarına xidmət edən Qanun dövlət orqanlarında şəffaf və obyektiv işə qəbul sisteminin formalaşmasını, vətəndaşların hüquqlarının qorunmasını, dövlət idarəetmə mexanizminin peşəkar kadrlarla təmin olunmasını, qanun pozuntularının qarşısının alınmasını nəzərdə tutur. Qanuna mütəmadi olaraq dəyişikliklərin edilməsi və dövrün tələblərinə uyğunlaşdırılması çevik və effektiv idarəçiliyin göstəricisidir.

Prezident İlham Əliyev dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsi, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları korpusunu formalaşdırmaqla dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Dövlət başçısının 2023-cü il 24 fevral tarixli sərəncamına əsasən isə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qəbul olunmuş Qanunla dövlət qulluğunun hüquqi, təşkilati və maliyyə-iqtisadi əsasları müəyyən edilmişdir. Ötən il qanuna edilən əsas dəyişikliklərdən biri də dövlət qulluğunda şəffaflığı və hesabatlılığı artırmaq üçün elektron təsdiq sisteminin tətbiqidir. Bu dəyişikliklə paralel olaraq xidmətdə irəliləyiş yalnız attestasiya nəticələri ilə deyil, eyni zamanda fəaliyyət göstəriciləri ilə müəyyən edilmiş, əlavələr yenidən tənzimlənmiş, kadr ehtiyatı üzrə kriteriyalar daha dəqiq və şəffaf şəkildə formalaşdırılmışdır. Dövlət qulluqçularının ixtisaslaşdırılması və rəqəmsal bacarıqlarının artırılması məsələləri isə bu il qanunda nəzərdə tutulan dəyişikliklər sırasındadır. Belə ki, rəqəmsal savadlılıq üzrə minimum standartlar müəyyən edilmiş, dövlət qulluqçuları üçün illik onlayn təlim sertifikasiyası məcburi hala gətirilmiş, regionlarda çalışan dövlət qulluqçularına xüsusi stimullaşdırıcı təkliflər təqdim olunmuşdur.

Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli Sərəncamı ilə hər il iyunun 23-ü ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi qeyd olunur. Bu gün dövlət qulluqçularının cəmiyyət və dövlət qarşısında daşıdıqları məsuliyyətin diqqət mərkəzinə çəkilməsi, dövlət idarəetməsində şəffaflıq, peşəkarlıq və səmərəliliyin artırılmasının vacibliyinin vurğulanması baxımından əhəmiyyətlidir. Belə ki, dövlətin və cəmiyyətin inkişafı, vətəndaşların rifahı dövlət qulluqçularının səmərəli fəaliyyətindən birbaşa asılıdır. Bu mənada, dövlət qulluqçusu olmaq böyük məsuliyyət tələb edən, vətənə, xalqa xidmət missiyasıdır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən dövlət qulluğu siyasəti ölkəmizdə modern dövlət idarəçiliyinin formalaşmasına xidmət edir. İnsan hüquq və azadlıqlarının təminatı, vətəndaş məmnunluğuna nail olunması prinsiplərinə əsaslanan dövlət idarəetmə sistemi ölkə başçısının geniş miqyaslı islahatlar proqramı nəticəsində daim təkmilləşdirilir. Bu gün müasir müstəqil Azərbaycan dövlətinin dinamik inkişafı, vətəndaş məmnuniyyətinin təmin olunması peşəkar, sədaqətli, qanunun, ədalətin, dürüstlüyün daşıyıcısı olan dövlət qulluqçularının əməyinə əsaslanır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 22 iyun (№ 127).- S.1;12.